

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 54-55 (7291-7292) Çərşənbə, 5 avqust 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik


# Xalqın dəstəyi daha böyük uğurlara aparır

İki ay sonra Azərbaycan xalqı respublikamızın müstəqilliyinin 24 illiyini qeyd edəcəkdir. 24 il tarix üçün elə böyük bir zaman deyil. Bu 24 ilin düz yarısı—12 ildir ki, ümummilli liderimiz Heydər Əliyevin özü qədər inandığı varisi, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bütün sahələr üzrə sürətlə inkişaf edir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin əzmkarlıqla həyata keçirdiyi çoxşaxəli islahatlar respublika iqtisadiyyatında böyük uğurlara gətirib çıxarmış, nəticədə ölkənin hər bir vətəndaşının həyatında nəzərə çarpacaq irəliləyişlərə, onların rifah halının yüksəlməsinə səbəb olmuşdur. Dövlətimizin başçısının ümummilli lider Heydər Əliyevin siyasi kursunu qətiyyətlə davam etdirməsi xalqda öz rəhbərinə dərin inam yaratmışdır.

Cənab İlham Əliyev ölkə həyatı üçün strateji əhəmiyyəti olan inkişaf proqramlarının hazırlanmasını və işlək vəziyyətə gətirilməsini təmin etmiş, nəticədə ölkədə bütün sahələrdə intibah və tərəqqiyə nail olmuşdur. Bildiyimiz kimi Azərbaycan dünyada iri enerji ehtiyatlarına malik ölkə kimi tanınır. Bu enerji ehtiyatlarından ancaq düşünülmüş şəkildə istifadə edərkən, nailiyyətlər qazanmaq mümkündür. Əks təqdirdə isə enerji ehtiyatı heç də öz-özünə insanlara xoş rifah gətirmir. Neft və qaz ehtiyatlarından səmərəli istifadə edərək ölkənin müstəqilliyinin möhkəmlənməsi, iqtisadiyyatın bütün sferalarının ahəngdar inkişafı strategiyasının əsasını ölkəmizdə ulu öndər Heydər Əliyev qoymuşdur. 1994-cü ilin sentyabrında dünyanın ən nüfuzlu dövlətlərini təmsil edən iri neft şirkətləri ilə məşhur «Əsrin müqaviləsi»nin imzalanması bu strategiyanın çox möhtəşəm başlanğıcı idi.



Bu başlanğıc möhtərəm Prezidentimiz tərəfindən uğurla gerçəkləşdirilir, inkişaf etdirilir. Nəticədə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu artmış, neft strategiyası milli maraqlara uyğun davam etdirməkdədir.

Ölkə Prezidenti idarəetmə sisteminə novator düşüncə tərzi, dinamizm və müasirlik gətirmişdir. Hər il üçün şəxsən Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumətin həyata keçirməli olduğu tədbirlərin əhatə dairəsi müəyyənləşmiş, onların icrası ölkə başçısı tərəfindən şəxsi nəzarətdə saxlanılmışdır. Son 12 ildə regional inkişaf və qeyri-neft sektorunun inkişafı naminə həyata keçirilən tədbirləri xüsusi vurğulamaq lazımdır. Hər bir bölgənin davamlı inkişafının təmin olunması, yeni-yeni iş yerlərinin yaradılması məqsədilə ölkə Prezidentinin imzaladığı dövlət proqramlarının, fərman və sərəncamların icrası vəziyyəti ilə yerində tanış olmaq, sadə vətəndaşlarla birbaşa ünsiyyət quraraq mövcud vəziyyət haqqında informasiyaları ilk mənbədən almaq üçün ölkəmizin müxtəlif rayonlarına etdiyi səfərlər cənab İlham Əliyevin Prezidentlik fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Yeri gəlmişkən qeyd etməliyik ki, dövlətimizin başçısı ölkə Prezidenti kimi 12 ildə 12 dəfə Qəbələ rayonunda olmuş, çoxsaylı sənaye, kənd təsərrüfatı təyinatlı və sosial obyektlərin açılışında iştirak etmişdir. Bu səfərləri zamanı rayon ictimaiyyətinin çoxsaylı nümayəndələri ilə görüşən möhtərəm cənab İlham Əliyev bütün ölkə əhalisinin olduğu kimi qəbələlilərin də doğmasına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təkcə iqtisadi inkitşaf sahəsində yox, Vətənimizin dünyaya tanıdılması, uğurlu xarici siyasət sahəsində də böyük nailiyyətlər əldə etmişdir. Avropa Şurasının tam hüquqlu üzvü olan respublikamız ATƏT, Avropa Birliyi, NATO kimi təşkilatlarla sıx əməkdaşlıq edir. 2011-ci ildə Azərbaycan 150-dən çox dünya dövlətinin dəstəyi ilə dünyanın hüquqi, siyasi atmosferini müəyyən edən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

Cənab İlham Əliyevin ulu öndər Heydər Əliyev siyasi məktəbində yetişmiş praqmatik, müasir lider imicinə malik olması Azərbaycanın Avropa məkanında nüfuzlu dövlətə çevrilməsinə, onun həm ölkə daxilində, həm də ölkədən kənarda ciddi siyasi dəstək almasına zəmin yaratmışdır. Elə bu ilin birinci yarısında Azərbaycan tarixinə möhtəşəm bir hadisə kimi daxil olan ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsinə etibar edilməsi Azərbaycanın və onun lideri cənab İlham Əliyevin böyük nüfuzunun nəticəsidir. I Avropa Oyunları Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin artan qüdrətini, böyük məsuliyyət və təşkilatçılıq tələb edən belə mötəbər tədbirləri yüksək səviyyədə keçirməyə qadir olduğunu bir daha təsdiqlədi.

Öz fəaliyyəti ilə ölkəmizin Prezidenti nəinki qonşu ölkələrdə, hətta sərhəddimizdən çox uzaq ölkələrdə belə böyük hörmət və nüfuz qazanmışdır. Bir müddət əvvəl Filippində çıxan «Biz Nevs Asia» jurnalı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi «İlin adamı» elan etmişdi. Qeyd edək ki, bu jurnal Asiya qitəsinin inkişaf etmiş ölkələrində həyata keçirilən uğurlu islahatları, dövlət başçılarının fəaliyyətini əks etdirir və çox geniş oxucu kütləsinə malikdir. Dünyanın 40 ölkəsinin 50-dən artıq universitetini təmsil edən 1700-dən çox gənc arasında birbaşa və 10 minə yaxın tələbə arasında onlayn keçirilən sorğuya əsasən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatı coğrafiyasında «İlin dövlət başçısı» adına layiq görülmüşdü.

«Rəy» Monitorinq Mərkəzinin bu ilin iyul ayının əvvəlində ölkə üzrə keçirdiyi rəy sorğusunun nəticələri də diqqəti cəlb edir. Rəyi soruşulanların cavablarından görünür ki, əhali bütünlüklə ölkə başçısı cənab İlham Əliyevin daxili və xarici siyasətini dəstəkləyir. Qeyd etmək lazımdır ki, dünyada xalq arasında belə yüksək reytinqə malik olan liderlər çox azdır.

İstər beynəlxalq təşkilatların hesabatlarında, istərsə də nüfuzlu sosioloji mərkəzlər tərəfindən keçirilən rəy sorğularında ölkə həyatının bütün sahələrində möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə əldə olunan uğurlar təqdir olunur, respublikamızın davamlı inkişaf yolunda olduğu bildirilir. Bu isə ona əsas verir ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktik şəkildə gercəkləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət vətənimizi daha böyük uğurlara aparacaqdır.

**Qüdrət SƏMƏDOV.**